1_Layout 1 29.09.2020 9:56 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 18 (584)

30 sentyabr 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

**Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.**

**AZƏRTAC** xəbər verir ki, dövlətimizin başçısı iclasda çıxış edib.



**Prezident İlham Əliyevin çıxışı**

- Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu, bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Səhər tezdən məlumatı alan kimi, mən Müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır.

Bildirməliyəm ki, Ermənistanın hərbi təxribatı planlaşdırılmış təxribatdır. Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir. Mən bu məsələ ilə bağlı artıq son bir həftə ərzində bir neçə dəfə həm televiziya kanallarında müsahibəmdə, eyni zamanda, BMT kürsüsündən çıxış edərkən öz fikirlərimi bildirmişdim və demişdim ki, təcavüzkar dövlət dayandırılmalıdır. Onlar yeni müharibəyə hazırlaşırlar.

Bu gün mən Azərbaycan xalqına müraciət etdim. Müraciətdə bu təxribatın səbəbləri və son müddət ərzində Ermənistanın çirkin addımları haqqında geniş məlumat verdim, fikirlərimi bölüşdüm, onları təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bir daha bildirirəm ki, bu gün səhər tezdən bizə qarşı edilən hərbi hücum planlaşdırılmış hərbi təxribat idi. Çünki bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan bizim mövqelərimiz atəşə tutuldu və eyni zamanda, yaşayış məntəqələrimiz, kəndlərimiz atəşə tutuldu. Qeyd etdiyim kimi, mülki əhali arasında itkilərimiz var. Bu, bir daha Ermənistanın, Ermənistan faşizminin eybəcər sifətini göstərir. Çünki dinc əhaliyə qarşı belə qəddarlıq ancaq faşist dövlətlərə aid ola bilər və birinci dəfə deyil, Tovuz hadisələrində, ondan sonra digər hadisələrdə, Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər.

Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir. Prezident Administrasiyasına, eyni zamanda, Müdafiə Nazirliyinə göstəriş verildi ki, əhali müntəzəm olaraq hadisələrin gedişatı ilə bağlı məlumatlandırılsın. Onu deyə bilərəm ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm!

Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq.

Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.

Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir.

Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Mən dəfələrlə demişəm, biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın. Heç vaxt imkan verə bilmərik və bugünkü hadisələr onu bir daha göstərir.

Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Mən Dağlıq Qarabağın tarixi ilə, keçmişi ilə bağlı beynəlxalq tədbirlərdə müxtəlif kürsülərdən dəfələrlə öz sözlərimi demişəm. Tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmışam. Bizim məqsədyönlü və yorulmaz səylərimiz nəticəsində bu gün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünyada tam geniş təsəvvür var. Ancaq münaqişənin ilk illərində bu, belə deyildi. Münaqişənin ilk illərində dünya erməniliyi Azərbaycanı işğalçı kimi, təcavüzkar kimi təqdim edirdi. Əfsuslar ki, o vaxt Azərbaycan rəhbərliyində olmuş şəxslər bu təbliğata qarşı öz sözünü deyə bilmədilər. Azərbaycan elə bir ağır vəziyyətdə idi ki, torpaqlarımız əldən gedirdi, amma dünyada elə bilirdilər ki, Azərbaycan təcavüzkardır. Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır. Məhz onların dövründə torpaqlarımız işğal altına düşüb. Onların xəyanətkar, yarıtmaz fəaliyyəti nəticəsində biz bu torpaqları itirmişik. Mən həmişə deyirdim ki, biz müvəqqəti itirmişik, biz bu torpaqlara qayıtmalıyıq. Şuşanın satılması sırf o vaxt hakimiyyət uğrunda gedən mübarizənin nəticəsində baş vermişdir. Kəlbəcərin, Laçının işğal altına düşməsi Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin birbaşa məsuliyyətidir. Məhz bu işğaldan sonra demək olar ki, növbəti işğal da qaçılmaz oldu. Çünki Laçının, Kəlbəcərin, Şuşanın işğal altına düşməsi Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Belə olan halda əlbəttə ki, o bölgələrə, Dağlıq Qarabağa silah təchizatı, ondan sonra digər maddi resursların təchizatı asanlaşmışdır.

Bu gün biz Azərbaycan Xalq Cəbhəsi Partiyasının və Müsavat Partiyasının yarıtmaz əməllərini, bu ləkəni Azərbaycanın üstündən silirik. Bu gün biz öz torpaqlarımızı bərpa edirik. 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Bu gün - 2020-ci ildə, artıq bir daha qeyd etmək istəyirəm ki, bir neçə yaşayış məntəqəmiz işğalçılardan azad edildi, bir neçə strateji yüksəkliklər Azərbaycanın nəzarətinə keçdi. Güclü Azərbaycan Ordusu güclü siyasi iradəyə əsaslanır.

Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır.

Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik.

**Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!**

## Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutduğunu, nəticədə mülki şəxslər və hərbçilər arasında ölən və yaralananların olduğunu, bu hücumların qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladığını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndini və 111-ci maddəsini rəhbər tutaraq qərara alıram:

1. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilsin.

2. Hərbi vəziyyətin təmin edilməsi məqsədilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

3. Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilsin. Komendant saatının tətbiq edildiyi ərazilərdə:

3.1. şəxslərin xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənədləri olmadan küçələrdə və digər ictimai yerlərdə olmaları qadağan edilsin;

3.2. xüsusi giriş-çıxış rejimi tətbiq edilsin, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülsün.

4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi komendant saatının tətbiqindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Hərbi vəziyyət dövründə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin, vətəndaşların hüquq və azadlıqlarının qismən və müvəqqəti məhdudlaşdırılmasını nəzərdə tutan tədbirlər vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində və Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tətbiq edilsin.

6. Bu Fərman təsdiq olunması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilsin.

7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsindən irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 sentyabr 2020-ci il.

## POLİS ORQANLARINDA XİDMƏT ETMƏK ARZUSUNDA OLAN GƏNCLƏRİN SIRA BAXIŞI KEÇİRİLİB



Sentyabrın 17-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən Nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 240 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



Gənclər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirrlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb.

General-polkovnik Vilayət Eyvazov gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hər zaman polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini artırmalarını, öz üzərlərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.09.2020 10:41 Page 1



# XÜSUSİ TƏYİNATLILARIN HAZIRLANMASINDA QARDAŞ TÜRKİYƏNİN DƏSTƏYİ BÖYÜKDÜR

Daxili Qoşunların hərbi qulluqçuları dost və qardaş ölkə olan Türkiyənin Jandarm Qüvvələrinin təlim-tədris mərkəzlərində təhsil alaraq ixtisaslarını artırır, aidiyyəti hərbi kursları müvəffəqiyyətlə keçərək, peşəkarlıq vərdişlərinə yiyələnirlər.



Qeyd edim ki, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına dair Protokol" 1997-ci il oktyabrın 31-də imzalanıb. Bu Protokolun imzalanması ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Türkiyə Jandarm Baş Komandanlığı arasında qardaşlığın, uğurlu əməkdaşlığın təməli qoyulub. Belə ki, bugünədək Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu Türkiyə Respublikası Jandarm Baş Komandanlığının təlim-tədris mərkəzlərində müxtəlif istiqamətlər üzrə ixtisas və təkmilləşdirmə kursları keçib.



Xidməti fəaliyyət üzrə geniş biliklər əldə etmək, qabaqcıl təcrübəyə yiyələnmək və peşəkar hazırlığı daha da yüksəltmək məqsədilə Daxili Qoşunların xüsusi təyinatlıları - 99713 saylı hərbi hissədən kapitan Nurlan Məmmədovun rəhbərliyi ilə on səkkiz nəfər və 12565 saylı hərbi hissədən isə leytenant Elcan Musayev cari il fevralın 11-dən avqustun 28-dək Türkiyə Respublikasında ezamiyyətdə olublar.



Hərbi qulluqçularımız Türkiyə Respublikasının İzmir şəhəri yaxınlığındakı Foça Jandarm Komando Təlim Mərkəzində "Komando təməl", "İç güvənlik", "Yaşayış məntəqələrində terrorla mübarizə əməliyyatı" və "Dalğıc" kurslarında iştirak ediblər.

Nəzəri və praktiki məşğələlər formatında, eləcə də çətin ərazi və hava şəraitlərində keçirilən təlim kursunda aşağıdakı mövzular öyrədilib və məşq etdirilib: xüsusi taktiki hazırlıq, hərbi topoqrafiya, dağçılıq, helikopterdən atılma, terrorçularla mübarizə, atəş hazırlığı, fiziki hazırlıq və əlbəyaxa döyüş, eləcə də yaşayış məntəqələrində terrorçularla mübarizə əməliyyatı.

Kurs müddətində topoqrafiyadan xəritə üzərində iş, məsafənin ölçülməsi, sıx və geniş meşəlik, eləcə də çətin relyefli ərazilərin keçilməsi, komandanlığa olduğu yerin koordinatının düzgün çatdırılması, müxtəlif silah növlərindən istifadə edilməklə həm gündüz, həm də gecə təlim atışlarının keçirilməsi, qrupun helikopterə minməsi, düşməsi, düşərkən qrupun tərtiblənməsi, helikopterdə hərəkətləri və oturma qaydaları öyrədilib. Bundan başqa, xüsusi taktiki hazırlıq üzrə dağlıq və meşəlik ərazilərdə qrupun irəliləməsi, səssizlik və hərbi qulluqçuların maskalanması, hər hansı bir yaşayış məntəqəsində məskunlaşmış terrorçuların zərərsizləşdirilməsi, silahla hərəkət, daldalanacaq arxasından atışların icrası, hərbi qulluqçunun su üzərində qalması, uzun məsafəyə müxtəlif vəziyyətlərdə üzmə, yaralı şəxsin suda daşınması və suda batan hərbi qulluqçunun xilas edilməsi qaydaları üzrə praktiki məşğələlər də keçirilib. Əsas diqqət gizli hərəkətin təşkili və şərti düşmənin məhv edilməsinə yönəldilib.

"Daxili Qoşunların xüsusi təyinatlılarının təlimində Türkiyə Jandarm Qüvvələrinin dəstəyi böyükdür" - deyən Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsində baş zabit polkovnik-leytenant Tural Novruzov kursda qazanılan təcrübə, nailiyyətlər və keçirilən məşğələlərin metodikasından danışdı. Bildirdi ki, hər iki qardaş ölkənin hərbi qulluqçuları kurs zamanı keçirilən məşğələlərdə vətənpərvərlik hissləri ilə peşəkarlıq nümayiş etdiriblər.

Polkovnik-leytenant T.Novruzovun sözlərinə görə, xüsusi təyinatlıların döyüş ruhu və hərbçi məharəti daim yüksək səviyyədə olmalı, bu amil qarşıya qoyulan istənilən tapşırığın uğurlu icrasına zəmin yaratmalıdır.

Avqustun 28-də Foça Jandarm Komando Təlim Mərkəzinin komandanı general-mayor Vedat Çolaq və digər rəhbər şəxslər tərəfindən kursu bitirən hərbi qulluqçulara sertifikatlar və döş nişanları təqdim edilib.

Öz döyüş hazırlığını daim təkmilləşdirən Daxili Qoşunların xüsusi təyinatlıları komandanlığın etimadını əzmkarlıqları, məsuliyyətli fəaliyyətləri ilə doğruldurlar.

**baş leytenant Sadıq Rəfiyev**

*İdman*

## ZABİTİMİZ DANİMARKADA MÖHTƏŞƏM QƏLƏBƏSİ İLƏ AVROPA KUBOKUNUN FİNALINA VƏSİQƏNİ TƏMİN EDİB



İdmançı hərbi qulluqçularımızın əldə etdiyi nailiyyətlərin sayı daim artır. İstər respublikamızda, istərsə də dünya ölkələrində keçirilən beynəlxalq əhəmiyyətli turnirlərdə bayrağımızı şərəflə dalğalandıran idmançı hərbi qulluqçularımız hər birimizin fəxridir. Onların məhz Daxili Qoşunlarda bizimlə birlikdə xidmət etməsi qürur hissi doğurur.

Keçirilən müxtəlif idman yarışlarında ölkəmizi və Daxili Qoşunları layiqincə təmsil edərək, hər birimizi ürəkdən sevindirməyi bacaran hərbi qulluqçularımızdan biri bu dəfə də ənənəsinə sadiq qalıb.

Daxili Qoşunların İdman komandasında məşqçi-müəllim vəzifəsində xidmət edən, son illər bir-birinin ardınca qələbələr qazanan vətənpərvər hərbi qulluqçumuz baş leytenant Ruslan Lunevin növbəti nailiyyətinin sorağı Danimarkadan gəlib. Belə ki, sentyabrın 9-dan 12-dək Danimarka Respublikasının Orhus şəhərində keçirilən güllə atıcılığı üzrə Avropa kubokunun dördüncü mərhələsində iştirak edən idmançımız 5 ölkədən 16 idmançının qatıldığı yarışda 25 metr məsafədən pnevmatik tapançadan sürətli atəşaçmada bütün rəqiblərini geridə qoyaraq birinci yerin sahibi olub. Təmsilçimiz bu nəticəyə 580 xal toplamaqla nail olub. Yarışda Sloveniya idmançısı 579 xalla ikinci yeri, Danimarka idmançısı isə 575 xalla üçüncü yeri tutub. İdmançımız bu qələbəsi ilə cari ilin 8-13 oktyabr tarixlərində Portuqaliyanın Lissabon şəhərində keçirilməsi planlaşdırılan Avropa kubokunun finalına vəsiqə qazanıb.

Güllə atıcılığı üzrə idman ustası olan hərbi qulluqçumuz beynəlxalq əhəmiyyətli yarışlarda mahir atıcı kimi fərqlənməyi bacarıb, İtaliyada, Almaniyada, Norveçdə və Gürcüstanda keçirilən turnirlərin qızıl medalçısıdır. Zabitimiz IV İslam Həmrəyliyi Oyunları zamanı pnevmatik tapança ilə atəşaçmanın bütün təsnifatları üzrə rəqiblərini üstələyərək beş qızıl medalın sahibi olub.

Qeyd edək ki, Ruslan koronavirus pandemiyasının yaratdığı problemlər səbəbindən bu il təxirə salınan və gələn il keçirilməsi planlaşdırılan "Tokio-2021" Yay Olimpiya və Paralimpiya Oyunlarına vəsiqə əldə edən altıncı Azərbaycan idmançısıdır.

**baş leytenant Sadıq Rəfiyev**

# TƏLİMDƏ TƏR, DÖYÜŞDƏ ZƏFƏR

***Xüsusi təyinatlı bölmə cari ilin birinci yarımilində xidməti-döyüş fəaliyyətinin yekunlarına görə birinciliyi qazanıb***

17071 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də "Canavar" şərti adı verilmiş xüsusi təyinatlı bölməsidir. 2020-ci ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə ən yüksək nəticə göstərərək, hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülməsi bunu bir daha təsdiq edir.



İlin bütün fəsillərində, müxtəlif relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan bölmənin təlim proqramları digər bölmələrin tədris proqramlarından fərqlənir.



Hərbi qulluqçudan kifayət qədər güc və möhkəm iradə tələb edən məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

Avqust ayının 27-dən 29-dək Daxili Qoşunların Baş İdarəsinin Qərargahı tərəfindən hərbi hissənin xüsusi təyinatlı bölməsinin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılarkən qeyd etdiyimiz fikirlər öz təsdiqini tapıb. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit polkovnik-leytenant Tural Novruzov bildirib ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlığının səviyyəsi dərindən öyrənilib, fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq, xüsusi təyinatlı dəstəyə həvalə olunmuş tapşırıqların yerinə yetirilməsi üzrə qrup, yarımqrup komandirlərinin, həmçinin, şəxsi heyətin bilik və bacarığına əsas diqqət yetirilib.

Bundan başqa, xüsusi təlim atış çalışmalarının yerinə yetirilməsi ilə atıcılıq vərdişləri, eləcə də tirdə dartınma, maneələr zolağının dəf edilməsi və 100 metr məsafəyə qaçış üzrə çalışmaların yerinə yetirilməsi ilə fiziki hazırlığın vəziyyəti, taktiki hazırlıq, hərbi topoqrafiya, alpinizm, hərbi-tibbi, texniki və mühəndis hazırlığından müvafiq normativlər üzrə qrupların şəxsi heyətinin praktiki bacarığı qiymətləndirilib.

Polkovnik-leytenant T.Novruzov onu da vurğulayıb ki, yoxlama zamanı təlim məqsədilə xüsusi təyinatlı dəstənin müvafiq həyəcan siqnalı ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, əməliyyat yerinə marşın icrası, komandir heyətinin qərar qəbuletmə bacarığı yoxlanılıb. Müəyyən olunub ki, dəstə qarşıda duran tapşırıqların icrasına hazırdır. Burada nizam-intizam, daxili qayda qorunub saxlanılır.

Bununla yanaşı, dəstənin silahlanmasında mövcud olan silah-sursat, müşahidə və optik cihazların vəziyyəti də yoxlanılarkən müəyyən olunub ki, silahlar sazdır, normal döyüş vəziyyətinə gətirilib, xüsusi nişangah və cihazlar təyinatına uyğun olaraq istifadə edilir, silahlara vaxtlı-vaxtında qulluq göstərilir.

Polkovnik-leytenant T.Novruzov bölmənin şəxsi heyətindən 3 nəfərin "Zoğalı beret" daşıyıcısı olduğunu, 1 nəfər hərbi qulluqçunun isə xüsusi hazırlıq kursu keçdiyini də söyləyib. O əlavə edib ki, yoxlama müddətində dəstənin şəxsi heyətinə "Topoqrafik xəritələr, növləri, istifadəsi və koordinat sistemləri", "Xüsusi əməliyyatlarda qrupun, yarımqrupun döyüş düzülüşləri" mövzusunda məşğələlər keçirilib. Məşğələlər zamanı xüsusi təyinatlı bölmələr üçün nəzərdə tutulmuş normativlərin yerinə yetirilməsi metodikaları da praktiki olaraq şəxsi heyətə izah edilib.

Sonda dəstənin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə "Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti" mövzusunda söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib və aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar və tövsiyələr verilib.

**baş leytenant Nigar Ağayeva**

## HƏRBİ MARŞLAR ŞƏXSİ HEYƏTƏ VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİ AŞILAYIR

Daxili Qoşunların həm ağır və çətin, həm də əlamətdar günlərində onunla birgə addımlayan, şəxsi heyətin vətənpərvərlik hisslərinin və döyüş ruhunun yüksəldilməsində mühüm rol oynayan Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestri ötən müddət ərzində xeyli inkişaf edərək, yeni-yeni uğurlar qazanıb. Orkestr özünün nümunəvi, nizam-intizamlı hərbi qulluqçuları, istedadlı musiqiçiləri ilə fərqlənir.



Baş gizir Səbuhi Allahverdiyev də onlardan biridir. 1978-ci il iyunun 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Maxta kəndində dünyaya göz açıb. 1995-ci ildə Bakıda Bülbül adına orta məktəbdə musiqi təhsili alıb, skripka və qaboy musiqi alətlərində ifa etməyi öyrənib. Səbuhi bildirir ki, burada təhsil aldığı illər, xüsusilə, müəllimi, Xalq artisti Kamil Cəlilovdan aldığı dərslər onun həyatında, eləcə də bugünkü xidməti fəaliyyətində vacib rol oynayıb. Daha sonra, 1995-1999-cu illərdə Üzeyir bəy Hacıbəyov adına Musiqi Akademiyasında ali musiqi təhsili alıb. 2000-2001-ci illərdə Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrindən birində müddətli həqiqi hərbi xidmət keçib. 2008-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. 2013-cü ildən Nümunəvi göstərici hərbi orkestrin mahnı ansamblında hərbi dirijor vəzifəsindədir.

Baş gizir S.Allahverdiyev bildirdi ki, zəngin yaradıcılıq potensialına və geniş fəaliyyət təcrübəsinə malik orkestrlərdən olan Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin sıralarında xidmət etmək qürurvericidir: "Orkestrin mahnı ansamblının tərkibində müxtəlif musiqi alətlərində - tar, nağara, saz, ud, balaban, zurna, klarnet, qaboyda ifa edən musiqiçilər var. Onların hər biri özünəməxsus istedadı ilə fərqlənir. Ansamblın repertuarında daha çox vətənpərvər ruhlu milli və xarici mahnılara üstünlük verilir. Bu da təsadüfi deyil. Bu tip musiqilər, hərbi marşlar şəxsi heyətə vətənpərvərlik əqidəsinin aşılanmasında, onlarda Vətənə, el-obaya, torpağa bağlılıq hisslərinin gücləndirilməsində əvəzsiz vasitədir".

Mahnı ansamblının yaradıcılıq səviyyəsinin yüksəldilməsinin diqqət mərkəzində saxlanıldığını söyləyən baş gizir S.Allahverdiyev dedi ki, bunun üçün şəxsi heyətlə mütəmadi olaraq məşqlər keçirilir: "Hər tədbirdən öncə repertuar seçimi olur. Ansambl indiyədək Daxili İşlər Nazirliyində, Daxili Qoşunlarda, eləcə də digər idarə və təşkilatlarda keçirilən yüzlərlə tədbirdə uğurla çıxış edib. Bu uğurlu çıxışların əsasında təbii olaraq, şəxsi heyətin danılmaz əməyi durur".

O, ansamblın nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından tar ifaçısı gizir Vüqar Hacıyevin, qarmon ifaçısı gizir Rabil Abbasovun, pianoçu gizir Musa Məmmədovun, saz ifaçısı gizir Natiq Mustafayevin adlarını çəkdi.

**baş leytenant Xədicə Hacızadə**

3_Layout 1 29.09.2020 11:51 Page 1



## UÇUŞLARA RƏHBƏRLİYİN HƏVALƏ OLUNDUĞU PEŞƏKAR ZABİT



17077 saylı hərbi hissə - Eskadrilyanın uçuşlara rəhbərlik qrupunda uçuşlar rəhbəri kapitan Bərzani Hümbətov iş qabiliyyətinə, sadəliyinə və kollektiv içində hörmətinə görə seçilən zabitlərdən biridir. O, 2015-ci ildən Daxili Qoşunların sıralarında ləyaqətlə xidmət edir. Həm hərbi hissə komandanlığının etimadını, həm də kollektivin rəğbətini qazanan kapitan B.Hümbətov keçən zaman kəsiyində işgüzarlıq xüsusiyyətini, xidmətə ciddi münasibətini göstərməyi bacarıb.

Kapitan B.Hümbətov bildirdi ki, qrup öz işini uçuşların aparılması haqqında müvafiq təlimat və əsasnamələrin tələblərinə əsasən təşkil edir. O, uçuşdan bir gün əvvəl tapşırıqlar alır. Uçuşların yerinə yetirilməsi üçün plan-cədvəlin tərtib olunmasında yaxından iştirak edir, eyni zamanda, uçuş heyətilə məşqlər keçirir. Uçuşlar zamanı start komanda məntəqəsində 3 qrup birgə fəaliyyət göstərir ki, onlardan biri və önəmlisi uçuşlara rəhbərlik qrupudur. Uçuşlara rəhbərlik qrupu işini Aviasiya-meteoroloji və Dispetçer xidmətləri ilə birgə qurur. Uçuşdan öncə tapşırığın həyata keçirildiyi ərazi üzrə hava şəraiti ətraflı öyrənilir, rabitə vasitələrinin sazlığı yoxlanılır. Eyni zamanda, hər bir hərbi qulluqçunun tibbi müayinədən keçirilməsi təmin olunur.

Sonra uçuş günü aidiyyəti qurumlardan icazə və uçuş şərtləri alınır. Ardınca uçuşların idarə edilməsinə başlanılır.

Bu gün Daxili Qoşunların sıralarında xidmət etdiyi üçün qürur duyduğunu deyən zabitimiz müsbət fərdi keyfiyyətləri ilə bir addım öndədir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayev haqqında danışdığımız zabitin bütün tapşırıqların öhdəsindən hər zaman layiqincə gəldiyini bildirdi. Qeyd etdi ki, yüksək döyüş hazırlığı və icraçılığı ilə fərqlənən kapitan B.Hümbətov peşə ustalığının daha da təkmilləşdirilməsi istiqamətində hər zaman çalışır.

Zabitimizə xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

## Komendant bölüyü yüksək döyüş və mənəvi-psixoloji hazırlığı ilə fərqlənir

12318 saylı hərbi hissənin qabaqcıllarından olan komendant bölüyü cari ilin birinci yarımili ərzində xidməti-döyüş fəaliyyətinin və üçüncü tədris dövrünün yekunlarına görə hərbi hissənin bölükləri arasında birinci yerə layiq görülüb. Bölüklər arasında nailiyyətləri ilə fərqləndiyinə görə hərbi hissə komandiri tərəfindən fərmanla mükafatlandırılıb. Məlumdur ki, hərbi hissənin ərazisinin, döyüş bayrağının, anbarların, avtomobil parkının etibarlı mühafizə və müdafiəsini təmin edən bölüyün şəxsi heyətinin hazırlığı hər zaman xüsusi önəm daşıyır. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi üçün hərbi intizamın möhkəmləndirilməsi olduqca vacibdir. Bu işdə bölük komandiri baş leytenant Mirağa Mirişovun əməyi böyükdür.

Bölük komandiri bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir: "Qarovul xidməti böyük məsuliyyət və diqqət tələb edir. Bu baxımdan, xidmətə nizam-intizamı, təlim-tərbiyəsi ilə fərqlənən, sağlamlıq durumu qənaətbəxş olan hərbi qulluqçular cəlb olunurlar. Postların dəyişdirilməsinə, xidmət zamanı postlarda saatdarın ayıq-sayıq xidmət aparmasına, döyüş hesabatının vaxtlı-vaxtında çatdırılmasına, tərbiyə işinin təşkilinə, səliqə-sahmana, şəxsi heyətin sağlamlığına diqqət yetirilir, silahların doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilir".



Qarovul nəfərlərinin seçilməsində bir sıra vacib amillərə diqqət yetirildiyini deyən baş leytenant M.Mirişovun sözlərinə görə, xidmətə cəlb edilməmişdən bir gün öncə hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin, hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq baş leytenant Aygül Dadaşova da fərdi qaydada xidmətə cəlb olunan şəxsi heyətlə söhbət aparır. Mütəmadi olaraq aparılan söhbətlərin məqsədi psixoloji durumunda, əhval-ruhiyyəsində hər hansı bir problem aşkar edilən hərbi qulluqçunun xidmətdən kənarlaşdırılmasıdır. O, bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Həmid Rəhimovun və taqım komandiri baş leytenant Tahir Əmirovun fəaliyyətini də qeyd etdi.





Baş leytenant M.Mirişov bildirdi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca vacibdir. Həmçinin, postda xidmət aparan zaman saatdarın ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edən faktorlardandır.

Bölük komandiri qabaqcıl hərbi qulluqçulardan kiçik gizir Anar Əhədov, kiçik çavuş Elgün Şıxməmmədli, baş əsgərlər Əzim Məmmədəliyev və İlqar Məmmədovun xidmətlərini yüksək qiymətləndirdi, onların digər yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

Baş leytenant M.Mirişov bölüyün şəxsi heyətinin bundan sonra da hissə komandanlığının etimadını doğruldacağına, hər zaman əzmkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**baş leytenant Sadıq Rəfiyev**

## DAXİLİ QOŞUNLARIN MƏRKƏZLƏŞDİRİLMİŞ TƏCHİZATI ÜZRƏ TAPŞIRIQLAR UĞURLA İCRA EDİLİR

Bu gün Daxili Qoşunların hərbi hissələrinin və şəxsi heyətinin maddi-texniki təminatı ən önəmli və diqqətdə saxlanılan məsələlərdən biridir. Bu baxımdan Daxili Qoşunların 64412 saylı hərbi hissəsi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

64412 saylı hərbi hissəyə xidməti ezamiyyətim zamanı burada yerləşən mərkəzi anbarların fəaliyyəti ilə yaxından tanış oldum.

Məlumat üçün qeyd edim ki, 64412 saylı hərbi hissə 1992-ci ilin iyun ayının 12-də yaradılıb və o vaxtdan bu günə kimi inkişaf edərək tədqirəlayiq yol keçib.

"Bu gün də hərbi hissə qarşısına qoyulan tapşırıqları uğurla icra edir. Daxili Qoşunların əsas təchizat növləri üzrə ehtiyatının cəmləşdirilməsi, Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələrinin madditexniki əmlaklarla vaxtlı-vaxtında və normativ sənədlər əsasında tam təchiz edilməsi, müvafiq müqavilələrin şərtlərinə uyğun olaraq, əmlakların müəssisə və təşkilatlardan qəbul edilməsi, onların qorunub saxlanılması və uçotunun aparılması hərbi hissənin vəzifələrinə aiddir".

Bu fikirləri 64412 saylı hərbi hissənin komandiri polkovnik-leytenant Anar Nəbiyev söylədi. O bildirdi ki, mərkəzləşdirilmiş anbarlar əsas təchizat növləri üzrə ehtiyatı hərbi hissədə cəmləşdirir. Müxtəlif təşkilatlardan və müəssisələrdən hərbi hissəyə daxil olan bütün növ əmlaklar, eləcə də ərzaq məhsulları ictimai nəzarət komissiyasının iştirakı ilə yoxlanılıb anbarlara qəbul edilir. Sonra Daxili Qoşunlar komandanlığının müvafiq əmr və göstərişlərinə əsasən hərbi hissələrin təminatına buraxılır.

Polkovnik-leytenant A.Nəbiyev hərbi hissədə 16 anbarın (ərzaq, ərzaq əmlakı, əşya, avtomobil və zirehli texnika ehtiyat hissələri,



YSM, silah-sursat, mənzil-istismar əmlakları, rabitə və AİS əmlakları, tibb, mühəndis, kimya, xəritə, mədəni-maarif əmlakları, aviasiya əmlakları və ehtiyat hissələri anbarları) və 2 emalatxananın (silah təmiri, rabitə emalatxanaları) mövcud olduğunu nəzərə çatdırdı.

Hissə komandiri hərbi hissənin gündəlik xidməti haqqında məlumat verərkən bildirdi ki, şəxsi heyət fəaliyyətini rəhbəredici sənədlərin tələbləri əsasında qurur. Səhər yerbəyer mərasimi keçirilir, onlara vəzifələri üzrə aidiyyəti tapşırıqlar verilir. Ardınca hər anbar rəisi cavabdeh olduğu anbarın mühafizə altından çıxarılmasında iştirak edir. Sonra onlar hissə komandanlığı tərəfindən gündəlik olaraq qarşılarına qoyulan tapşırıqların icrasına başlayırlar. Onun sözlərinə görə, hər bir hərbi qulluqçu üzərinə düşən tapşırıqların məsuliyyətini tam dərk edir və funksional vəzifələrini uğurla həyata keçirir. Bundan əlavə, anbarlarda səliqə-sahmana, yanğın təhlükəsizliyi qaydalarına cidid riayət olunur və hərbi qulluqçular bu istiqamətdə daim təlimatlandırılırlar.

Polkovnik-leytenant A.Nəbiyev xidmətdə nizam-intizamı, nümunəviliyi ilə fərqlənən hərbi qulluqçulardan mərkəzləşdirilmiş əşya anbarlarının rəisi baş gizir Əsgər Ələkbərovun və ərzaq anbarlarının rəisi gizir Xəyal Hüseynlinin adlarını çəkdi.

Elə mərkəzi anbarları gəzərkən baş gizir Əsgər Ələkbərov iş başında idi. Uzun müddətdir Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçumuz nizam-intizamı, işinə məsuliyyəti ilə yoldaşlarına nümunədir. O, 1974-cü il fevralın 9-da Ucar rayonunun Qazıyan kəndində doğulub. Orta təhsilini doğulub boya-başa çatdığı kənddə yerləşən məktəbdə alıb. Orta təhsilini tamamladıqdan sonra, 1991-1998-ci illərdə Gəncə şəhərində yerləşən Gəncə Baza İnşaat Kollecində təhsil alıb. 1992-1994-cü illərdə Füzuli və Laçın rayonlarında respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. Bir müddət Qaradağ rayonundakı Heydər Əliyev adına Dərin Özüllər zavodunda çalışıb. 2001-ci ildən Daxili Qoşunların sıralarında xidmətini davam etdirir. 2015-ci ildən 64412 saylı hərbi hissədədir. Müxtəlif vəzifələrdə xidmət edib. 2016-cı ilin iyun ayından əşya anbarlarının rəisidir.

Baş gizir Ə.Ələkbərov bildirdi ki, hərbi hissələrin mütəmadi olaraq yalnız təyin olunmuş müvafiq sənədlər əsasında əşya əmlakları ilə təminatına, əmlakların düzgün və keyfiyyətli qorunub saxlanılmasına, habelə tadarükçü təşkilatlardan əşya əmlaklarının alınması zamanı onların kəmiyyətinə, müqavilə şərtlərinə uyğunluğuna nəzarət etməyə cavabdehlik daşıyır. Bundan əlavə, anbarlarda saxlanılan əşya əmlaklarının nomenklaturasını bilmək, onların komplektliyinə, mövcudluğuna, keyfiyyətinə diqqət yetirmək də onun funksional vəzifələrinə daxildir.

Anbar rəisi vurğuladı ki, hər günün sonunda anbarlarda olan əmlakların dəqiq hesabatı aparılır, mədaxil-məxaric sənədləri məsul icraçıya təqdim olunur. Bundan başqa, ayda bir dəfədən az olmayaraq, məsul icraçı ilə tutuşdurma aparılır. Əşya anbarlarında yükləmə-boşaltma zamanı bu barədə təlimatın tələblərinə, eyni zamanda, yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunur.





Əşya anbarlarında məsul icraçı gizir Çiçək Sadıqova da vəzifələrinin öhdəsindən layiqincə gəlir. O, qeydiyyat kitabları və blanklarının, sənədlərin qorunub saxlanılmasına məsuliyyətlə yanaşır, anbarlardan əşya əmlaklarının buraxılması üzrə sənədləri düzgün tərtib edir, uçot kitablarını vaxtlı-vaxtında hazırlayır.

Ərzaq anbarlarının rəisi gizir Xəyal Hüseynli də hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Gənc hərbi qulluqçu olmasına baxmayaraq, öz üzərində daim çalışır, bacarıqlarını artırmağa səy göstərir. Ərzaq məhsullarının alınıb-verilməsinə, normalara uyğun qorunub saxlanılmasına ciddi nəzarət edir, onların vaxtından əvvəl korlanmamasına və itirilməməsinə cavabdehlik daşıyır. Ərzaq məhsullarının dəqiq uçotunu aparır, vaxtaşırı onların kəmiyyət və keyfiyyətini yoxlayır.

Gizir X.Hüseynli dedi ki, bütün hərbi hissələrdə şəxsi heyətin vaxtında kalorili və keyfiyyətli ərzaqlarla təmin olunması Daxili Qoşunların komandanlığı tərəfindən daim diqqətdə saxlanılır: "Bu baxımdan biz də xidməti fəaliyyətimizi rəhbəredici sənədlərin tələbləri əsasında qurur, vəzifələrimizin icrasına məsuliyyətlə yanaşırıq. Çünki hərbi qulluqçuların sağlamlığı ən vacib məsələlərdəndir".

Ərzaq anbarlarında məsul icraçı gizir Nigar Məmmədova da vəzifələrini məsuliyyətlə icra edir, öz üzərində daim çalışır, cavabdeh olduğu sahə üzrə biliklərinin artırılmasına səy göstərir.

**"Əsgər" qəzeti olaraq biz də, öz növbəmizdə, hərbi qulluqçuların hər birinə xidməti fəaliyyətlərində uğurlar arzulayırıq.**

**baş leytenant**
**Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# İGİD TALEYİNİ YAŞADI, DÖYÜŞLƏRDƏ DÜŞMƏNƏ SİNƏ GƏRDİ, ADI YADDAŞLARDA ƏBƏDİLƏŞDİ

Xalqımızın qeyrət siperi olmuş, düşmənlə qorxmadan qətiyyətlə vuruşmuş, vətənpərvərlik əqidəsinə son nəfəsinədək sadiq qalmış şəhidlərimizin şərəfli döyüş yolu dərin ehtiram hissi doğuran fədakarlıq örnəyidir. Həyatda şəhidlərtək fədai adına layiq görülən kimlərsə yoxdur. Onlar öz ölümləri ilə belə, aid olduqları xalqa döyüş ruhu aşılayır, onun qan yaddaşında yenilməzlik, ləyaqətlilik simvoluna çevrilirlər.

Vətən torpağında uyuyan, müqəddəs ruhlu şəhid hərbi qulluqçularımız barədə tədqiqatlarımızı davam etdiririk. Bu işdə məramımız aydın, yolumuz isə uzundur.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid olmuş hərbi qulluqçularının siyahısında adı 260-cı sıra nömrəsi ilə qeydə alınan çavuş Qasımov Kərim Mehdi oğlu da Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi uğrunda həyatını qurban verib.

O, 1971-ci ilin may ayının 21-də o vaxt Şamxor adlandırılan (indiki Şəmkir rayonu) rayonun Plankənd (sonrakı adı Muxtariyyə, indiki Qədimqala kəndi) yaşayış məntəqəsində dünyaya göz açıb. Qasımovlar ailəsində 6 övlad dünyaya gəlib, Kərim valideynlərinin sonbeşiyi idi. Mehdi Qasımov və Ülkər Qasımova (onlar vəfat ediblər) halal zəhmətləri ilə oğul və qızlarını boya-başa çatdırıblar, onları adət-ənənələrimizə uyğun, milli ruhda yetişdiriblər. Kərim ədəb-ərkanlı, böyük-kiçik yeri bilən, el-obaya hörmətlə yanaşan gənc kimi ata-anasından və müəllimlərindən aldığı tərbiyəni həmişə uca tutub. Ailəsinə bağlılığı, yoldaşları ilə münasibətdə dürüstlüyü və sadiqliyi ilə fərqlənib.

Doğma kəndindəki orta ümumtəhsil məktəbinin məzunu olmuş Kərim fiziki inkişafına xüsusi diqqət yetirib, idmana maraq göstərib, bacarıqlı futbolçu olub.

1989-1991-ci illərdə Kərim respublikamızdan kənarda, Rusiya Federasiyasının Yaroslavl şəhərində SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibində müddətli həqiqi hərbi xidmət keçib. 6581 saylı hərbi hissənin sıralarında atıcı vəzifəsindən manqa komandiri vəzifəsinədək, "sıravi"dən "çavuş" hərbi rütbəsinədək yüksəlib. Bundan əlavə, o, nümunəvi xidməti nəzərə alınaraq, müxtəlif dərəcəli fərqlənmə nişanları ilə mükafatlandırılıb.

Hərbi xidmətini uğurla başa çatdıraraq doğma yurda, ailəsinə qayıtdıqdan sonra gəncin doğmalarına da söylədiyi arzularından biri polis olmaq, əhalinin asayişinin keşiyində dayanmaq idi. Onun hərbi xidmətdə qazandığı təcrübə, yiyələndiyi biliklər, ümumilikdə, şəxsi keyfiyyətləri bu peşə üçün tam uyğun gəlirdi. Arzusunu reallaşdırmaq üçün hansı addımların atılmasını da müəyyənləşdirmişdi. Ancaq taleyini dəyişəcək ağır sınaqlar alın yazısı olaraq qarşıda Kərimi gözləyirdi...

Həmin dövrdə Ermənistanın Azərbaycana əsassız ərazi iddiaları səbəbindən Dağlıq Qarabağ və ətraf bölgələrdə çox gərgin vəziyyət yaranmışdı. Respublikamız öz müstəqilliyini elan etdikdən sonra Ermənistanın hərbi təcavüzü daha da şiddətlənməyə başlamışdı. 1992-ci ilin əvvəllərindən etibarən Dağlıq Qarabağda yaşayış məntəqələrimizin işğala məruz qalması, soydaşlarımızın öz yurdlarında məcburi köçkün vəziyyətinə düşməsi dözülməz bir gerçəklik



kimi xalqımızın bu təhlükə qarşısında səfərbər olunmasını tələb edirdi. 1992-ci ilin fevral ayının 26-da ermənilər Xocalıda dəhşətli soyqırım törətdilər. Həmin ilin may ayında isə Şuşa və Laçın düşmən tərəfindən işğal olundu.

Xalqımızın belə dar günündə qeyrətli oğullarımız ön cəbhəyə can atır, silaha sarılırdılar. K.Qasımov da ehtiyatda olan hərbi qulluqçu kimi könüllü olaraq döyüş zonasına göndərilmək üçün bir neçə dəfə müraciət edib. O mürəkkəb dövrdə hərbi komissarlıqlar könüllü axını ilə üz-üzə qalmışdı, bunu tənzimləmək müəyyən çətinliklər yaradırdı. Könüllüləri ayrı-ayrı hərbi qurumlara yönəldirdilər. Ön cəbhədə torpaqlarımızın müdafiəsində dayanan hərbi qurumlardan biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları idi.

Daxili Qoşunların Arxivindən verilən 3 avqust 2020-ci il tarixli arayışa əsaslanaraq qeyd edim ki, K.Qasımov (sənəddə onun hərbi rütbəsi "sıravi" kimi göstərilib) 13.08.1992-ci il tarixində Daxili Qoşunların öncə 5456 saylı hərbi hissəsinin (indiki 99713 saylı hərbi hissə) tərkibinə qəbul olunub, sonra isə çox qısa vaxtda, 16.08.1992-ci il tarixdən 3650 saylı hərbi hissəyə (indiki 67987 saylı hərbi hissə) göndərilib. 3650 saylı hərbi hissə o zaman Ağdam-Ağdərə bölgəsində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edirdi. Hərbi qulluqçularımız ön cəbhədə şəhər və kəndlərimizin müdafiəsində qətiyyətlə dayanır, işğal olunmuş ərazilərimizin azad edilməsi üçün mətinliklə vuruşurdular.

Kərim 1992-ci ilin avqust-noyabr aylarında Ağdam-Ağdərə bölgəsinin ayrı-ayrı istiqamətləri üzrə (Qalayçılar, Güneypəyə, Manikli (indiki Məlikli), Mehmana, Canyataq, Gülyataq, Çıldıran kəndləri və ətraf yüksəkliklər) şərəfli döyüş yolu keçib. Düşmənin ön mövqelərimizə hücumlarının qarşısının alınması, bir neçə kəndin və yüksəkliyin işğaldan azad edilməsi uğrunda döyüşlərdə igidlik nümunələri göstərib. Onlarla işğalçını məhv edib, silah-sursatını qənimət götürüb. Diversiya-kəşfiyyat tapşırıqlarını da yerinə yetirərkən düşmənə xeyli zərbə vurub, müxtəlif növ döyüş vasitələrini sıradan çıxarıb.

Od-alovlu günlərdə Kərimin döyüşçü yoldaşı olmuş müharibə veteranı Musa Həsənov onunla bağlı xatirələrini mənə danışdı. M.Həsənovun maraqlı xatirələri əslində geniş bir yazının mövzusu ola bilər. Veteran bildirdi ki, Kərim vətənpərvər, qorxubilməz, iradəli, ağır məqamlarda ruhdan düşməyən, iriçaplı silahdan məharətlə istifadə edən, daim ön cərgədə olan, yaralılar və meyitlərin döyüş meydanından çıxarılması üçün əlindən gələni əsirgəməyən, komandirlərin və yoldaşlarının güvənini qazanan hərbi qulluqçu idi. Həmçinin, məlumat verdi ki, Kərim "Kobra" ləqəbi ilə məşhurlaşan şəhid Elpərəst Hüseynovun yaxın silahdaşı olub. Onlar bir çox döyüş əməliyyatında birgə iştirak ediblər. Son döyüşdə də həlak olanadək düşməni xeyli tələfata uğradıblar.

Daxili Qoşunlar komandanının imzası ilə Qasımovlar ailəsinə ünvanlanan 19.11.1992-ci il tarixli məktubdan sitat: "Oğlunuz Kərim axırıncı dəfə Ağdərə rayonu ərazisində Sırxavənddən Çıldırana gedən yolda ermənilərin üç postunu məhv etmiş və düşmənin hücum əməliyyatını pozmuşdur".

1 dekabr 1992-ci ildə tərtib edilmiş ölüm haqqında şəhadətnamədə K.Qasımovun 9 noyabr 1992-ci ildə Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində hərbi tapşırığı yerinə yetirərkən qəhrəmancasına həlak olduğu yazılıb.

Daxili Qoşunların Arxivinin 03.08.2020-ci il tarixli arayışında isə hərbi qulluqçunun 10.11.1992-ci il tarixində Sırxavənd kəndi ərazisində döyüş zamanı aldığı güllə yarasından həlak olduğu qeyd edilib.

Şəhidin məzarı Şəmkir rayonunun Qədimqala kəndinin qəbiristanlığındadır. Məzarın üzərində həkk olunan ölüm tarixi 13.11.1992-ci ildir, bu da dəfn günü ilə bağlıdır.



Azərbaycan Respublikası Prezidentinin 6 may 2005-ci il tarixli, 803 nömrəli Sərəncamı ilə K.Qasımov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunub.

1995-ci ildə işıq üzü görmüş, Şamxal Rüstəmin müəllifi olduğu "Ölüm sevinməsin qoy!.. Şəmkir şəhidləri" kitabında, eləcə də müxtəlif illərdə çap olunan ayrı-ayrı qəzetlərdə şəhid haqqında məlumat verilib.

Qədimqala kəndində şəhidin adına küçə var. Bununla yanaşı, burada əslən bu kənddən olan 6 nəfər şəhidin xatirəsinə abidə inşa olunub.

İgid taleyini yaşayanların xatirəsi heç vaxt unudulmur!

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

**P.S.** Məqalə üçün fotoların çəkilməsi və məlumatların toplanmasında göstərdiyi köməyə görə şəhidin qardaşı Səlim Qasımova təşəkkürümüzü bildiririk.

# İNTİZAMLI HƏRBİ QULLUQÇU - NÜMUNƏVİ SÜRÜCÜ

Hər birimizə məlumdur ki, istənilən hərbi hissədə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, verilən tapşırıqların uğurla yerinə yetirilməsini şərtləndirən əsas amillərdən biri avtomobil və zirehli texnikanın məharətlə idarə edilməsidir. Məhz bu səbəbdən şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında çatdırılmasında peşəkar sürücü hərbi qulluqçuların rolu böyükdür.



Qəzetimizin bu sayında 16075 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində sürücü-atıcı əsgər Həzbulla Əlimuradov haqqında yazmaq qərarına gəldik.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər H.Əlimuradov 1989-cu il iyulun 3-də Qusar rayonunun Mucuq kəndində doğulub. Orta təhsilini böyüyüb boya-başa çatdığı kənd məktəbində alan Həzbulla həmin məktəbi 2006-cı ildə bitirib. Uşaqlıq illərində həvəskar səviyyədə idmanın güləş və ağırlıq çəki daşı qaldırma növü ilə məşğul olub. 2007-2009-cu illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ildən Daxili Qoşunların 16075 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən hərbi qulluqçumuz şəxsi heyətin hörmətini qazanıb.

Dəstə komandiri polkovnik-leytenant Coşqun Məmmədov tərəfindən müsbət xarakterizə olunan sözügedən hərbi qulluqçu intizamlı, işgüzar və bacarıqlıdır. Xidmət etdiyi bölmənin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında onun da özünəməxsus rolu var.

Gündəlik xidmətində rəhbəredici sənədlərin tələblərinə əsaslanır. Tapşırıqları vaxtında və düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə dəfələrlə bölmə və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

Əsgər H.Əlimuradov düşünür ki, hər bir sürücünün nəqliyyat vasitələrini müxtəlif hava və yol şəraitlərində idarəetmə bacarığı olmalıdır: "Müasir dövrdə hərəkətin intensivliyinin artması ilə əlaqədar olaraq sürücülər qarşısında yüksək tələblər qoyulur. Sürücü nəinki yol hərəkəti qaydalarını bilməli, həm də mürəkkəb şəraitdə sərbəst hərəkət etməyi, hərəkətin digər iştirakçılarına, xüsusilə də piyadalara qarşı çox diqqətli və ehtiyatlı olmağı bacarmalıdır. Nəqliyyat vasitəsini idarə edən hər bir sürücü bilməlidir ki, o, yol hərəkəti qaydalarına riayət etməklə ətrafındakı insanlara münasibətini və özünün şəxsi mədəniyyətini nümayiş etdirmiş olur".

**baş leytenant Nigar Ağayeva**

# "ƏLAÇI" DÖŞ NİŞANI İLƏ TƏLTİF OLUNMUŞ NÜMUNƏVİ MANQA KOMANDİRİ

Daxili Qoşunların sıralarında nizam-intizamı və nümunəvi xidmətilə seçilən hərbi qulluqçular çoxdur. Onlardan biri də 12318 saylı hərbi hissənin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Kənan Məhərrəmovdur.



O, 2001-ci il fevralın 14-də Şəmkir rayonunun Dəllər Cəyir kəndində dünyaya göz açıb. Orta təhsilini anadan olduğu kənddəki Zaur Abbasov adına tam orta məktəbdə alıb. 2019-cu ilin aprel ayından Daxili Qoşunlarda xidmət edir. Hazırda baş əsgər K.Məhərrəmov patrul bölüyündə manqa komandiri vəzifəsindədir. Bölük komandiri tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşır. Funksional vəzifələrini layiqincə yerinə yetirən baş əsgər K.Məhərrəmov komandir kimi tabeliyindəki şəxsi heyətə nümunə olmağı bacarır.

Manqa komandiri kimi tələbkar olması ilə yanaşı, eyni zamanda hərbi qulluqçuların qayğısına qalır, onların ehtiyacları ilə maraqlanır, xidmətə yeni qəbul olunmuş hərbi qulluqçularda dözümlülük, cəsarətlilik kimi xüsusiyyətlərin formalaşması üçün səy göstərir.

Həmçinin, o, məşğələlər zamanı hərbi peşənin sirrlərinə dərindən yiyələnməyə səy göstərir, komandirlərdən öyrəndiklərini tabeliyində olan şəxsi heyətə öyrətməyə çalışır. İndiyədək komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb.

Hərbi qulluqçumuz ardıcıl olaraq iki tədris dövründə və yekun yoxlamadan "əla" qiymət aldığına görə hərbi hissə komandiri tərəfindən "Əlaçı" döş nişanı ilə təltif edilib. Hər zaman qarşıya qoyulan tapşırıqları vaxtında və əzmlə yerinə yetirən baş əsgər K.Məhərrəmov bununla kifayətlənmir, yenə də öz üzərində fərdi olaraq çalışır və döyüş hazırlığını daha da təkmilləşdirir. Hərbi qulluqçumuzun idmana da böyük marağı var, futbolu çox sevir.

Asudə vaxtlarında əsas maraq və məşğuliyyətinin hərbi və bədii kitablar oxumaq olduğunu bildirən baş əsgər K.Məhərrəmov öz dünyagörüşünün artırılmasına ciddi diqqət yetirir. Ona xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**12318 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

*Həkim məsləhəti*

# ARTRİT AĞRILARINI AZALDAN TƏBİİ VASİTƏ - İTBURNU

**AZƏRTAC** "MedikForum" saytına istinadla xəbər verir ki, yeni araşdırma revmatoid artrit ilə əlaqəli ağrıları minimuma endirməyə kömək edən səmərəli vasitə olan itburnu meyvəsinə işarə edir.

Adətən bu vəziyyəti müalicə etmək üçün qeyri-steroid antiinflamatuar dərmanlar (QAİD) istifadə olunur. Bundan əlavə, xəstəliyi dəyişdirən dərmanlar və kortikosteroidlər təyin edilə bilər. Lakin bu müalicələrin çoxu qan təzyiqi, mədə xorası və qanaxma da daxil olmaqla xoşagəlməz təsirlərlə müşayiət edilir.



"Express" nəşri müəllifləri artrit zamanı ağrını azaldan təbii vasitə tapdıqları araşdırmadan bəhs etdi. "Revmatoid artritindən qaynaqlanan ağrıları azaltmağa qadir olan təbii maddələrdən biri itburnu meyvələrində tapılır", - deyə mənbə yazır.

Alimlər revmatoid artrit xəstəsi olan 89 xəstənin iştirakı ilə ikili kor randomizə edilmiş nəzarət müayinəsi aparmışlar. Könüllülərə altı ay ərzində itburnu meyvələrinin cövhəri və ya plasebo tərkibli əlavə verilib. Nəticələr göstərdi ki, itburnu qəbul edən qrupda oynaqların ağrısının 30% azalması və aktivlik səviyyəsinin yüksəlməsi qeydə alınıb.

Bu təbii vasitənin artrit zamanı ağrının azaldılmasına təsiri Skandinaviya və Almaniyada aparılmış əlavə tədqiqatlar ilə yoxlanılıb. Ekstraktı ilə əlavələrin oynaqlarda ağrı, sərtlik və şişkinliyi azaltmağa kömək etdiyi də təsdiqlənib.

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

## Macarıstan 218 ədəd "Lynx" piyada döyüş maşını alacaq

Macarıstanın Müdafiə Nazirliyi Almaniyanın "Rheinmetall" şirkətinə dəyəri 2 milyard avrodan çox olan 218 ədəd "Lynx" piyada döyüş və 9 ədəd "Buffalo" zirehli təmir-təxliyyə maşını sifariş verib. "Azeri Defence" saytının bildirdiyinə görə, bu barədə "Rheinmetall" şirkəti məlumat yayıb.



Budapeştdə imzalanan müqaviləyə zirehli texnikaların, əlaqədar məhsul və xidmətlərin tədarükü daxildir. Müqavilədə simulyatorlar, təlim və təlimat, əlavə ehtiyat hissələrin çatdırılması və texniki dəstək kimi əlavə məhsul və xidmətlər yer alır.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000